UOT 336.221:338.2 (479.24)

Azərbaycanın vergi jurnalı

# Azərbaycanın müasir vergi sisteminin formalaşması istiqamətində aparılan islahatlar, onların nəticələri və perspektiv inkişafı



**Vəlizadə Səftər Vəli oğlu***
Azərbaycan Dövlət Neft Akademiyasının magistrantı

*(Məqalə "Azərbaycanın vergi jurnalı"nın ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibətilə magistrantlar arasında referat yazılışı üzrə keçirdiyi II respublika müsabiqəsində 2-ci yerə layiq görülmüşdür)*

## Xülasə

*Tədqiqatın məqsədi* - Azərbaycan Respublikasının vergi sisteminin dinamik inkişafı təhlil edilmiş və formalaşması istiqamətləri müəyyən edilmişdir.

*Tədqiqatın metodologiyası* - sistemli yanaşma, müqayisəli təhlil.

*Tədqiqatın nəticələri* - Azərbaycan Respublikasının müasir vergi sisteminin formalaşması və inkişafı istiqamətində elmi cəhətdən əsaslandırılmış təkliflər verilmişdir.

*Tədqiqatın məhdudiyyətləri* - Azərbaycan Respublikasında mütərəqqi vergi sisteminin formalaşması və inkişafı istiqamətində elmi cəhətdən daha geniş araşdırma tələb olunur.

*Tədqiqatın praktiki əhəmiyyəti* - vergi islahatlarının həyata keçirilməsində, vergi mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi tədbirlərinin hazırlanmasında, mütərəqqi vergi sisteminin formalaşmasında elmi mənbə kimi istifadə edilməsidir.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* – mütərəqqi vergi sisteminin formalaşması və inkişafı istiqamətlərinin müəyyən edilməsi, tətbiqi və elmi cəhətdən əsaslandırılmasıdır.

**Açar sözlər:** *Azərbaycan iqtisadiyyatı, vergi sistemi, vergi siyasəti, vergi islahatları, elektron xidmətlər.*

* Bakı ş., AZ 1001, Azadlıq prospekti, 20.
seftervelizade@ymail.com



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

## 1. Giriş

Uzun illər respublikamız keçmiş sovet dövlətinin tərkibində olduğundan özünün müstəqil vergi sistemi olmamış, buna görə də müstəqil maliyyə və onun tərkib hissəsi olan vergi siyasəti apara bilməmişdir. 1991-ci ildə siyasi və iqtisadi müstəqillik əldə etdikdən sonra problemlərlə dolu çətin müstəqillik yolları ilə irəliləyən Azərbaycan bütün sahələrdə olduğu kimi vergi sahəsində də böyük vəzifələr yerinə yetirmək, islahatlar aparmaq zərurəti ilə üz-üzə qalmışdır. Çünki iqtisadiyyatın inzibati-amirlik sistemində mövcud olmuş qaydalardan birdəfəlik imtina etmək mümkün olmadığı kimi yenilərini də birdəfəlik qəbul etmək mümkün deyildi. Qeyd etmək lazımdır ki, Azərbaycanda bütün sahələrdə olduğu kimi, büdcə-vergi sistemində də əsaslı islahatların aparılması 1993-cü ilin iyun ayından ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəldikdən sonrakı siyasi sabitlik dövrünü əhatə edir. Bu parlaq dühanın xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən qurtuldu. Milli Qurtuluş yeni, yüksək intibaha açan qapı kimi tariximizi səhifələndirdi. Onun müdrikliyi, uzaqgörənliyi, qətiyyəti və dövlətçilik istedadı sayəsində Azərbaycan tezliklə təlatümlərdən, sarsıntılardan uğurla çıxaraq gələcəyə inamla baxan bir dövlətə çevrildi. Bütün sahələrdə olduğu kimi vergi sahəsində də əsaslı islahatlar aparıldı. Məhz həmin iqtisadi islahatların uğurla reallaşdırılması nəticəsində, iqtisadiyyatımızda iqtisadi artım templərinin yüksək göstəricilərə çatdırılması, sahibkarlığın, kiçik və orta biznesin təşəkkül tapması, regionların sosial iqtisadi inkişafında qısa zamanda real nəticələr əldə olundu [1].

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi inkişaf strategiyası bu gün də uğurla reallaşdırılaraq Azərbaycanı regionda ən dinamik inkişaf edən bir dövlətə çevrilməsinə imkan vermişdir. Ümummilli lider Heydər Əliyevin siyasi kursuna əsaslanaraq Prezident İlham Əliyevin yürütdüyü siyasət ilk növbədə, ölkədə sosial iqtisadi inkişafın və regional siyasətin gücləndirilməsi, sahibkarlığa dövlət qayğısının artırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması, yeni iş yerlərinin açılması, inzibati idarəetmə strukturlarının təkmilləşdirilməsi və beynəlxalq standartlara çatdırılması kimi mühüm həlqələri əhatə etməklə dövlətçilik maraqlarına xidmət edən iqtisadi strategiyanın uğurla həyata keçirilməsinə zəmin yaradıb. Bu siyasətin nəticəsi olaraq Azərbaycan iqtisadiyyatında müşahidə olunan müsbət dəyişikliklər özünü təkcə bazar münasibətlərinin dərinləşməsində deyil, həm də işgüzar mühitin aktivləşməsi və dinamikləşməsində, sahibkarlıq subyektlərinin sayının gündən-günə artmasında göstərir [1].

Artıq inzibati-amirlik üsul-idarəsinə söykənən formasiyadan yeni, azad sahibkarlıq və bazar münasibətlərinə əsaslanan sosial-iqtisadi quruluşa keçid tamamlanmışdır. Hazırda ölkəmiz daha yüksək sosial-iqtisadi dirçəliş mərhələsinə qədəm qoymaqdadır. Bu gün qarşıya innovativ və yeni çağırışlara cavab verən müasir iqtisadi sistemi formalaşdırmaq məqsədi qoyulmuşdur. Sözügedən sistemi qurmaq üçün

19 noyabr 2011-ci ildə prezident İlham Əliyev tərəfindən "Azərbaycan 2020: gələcəyə baxış" Konsepsiyasının hazırlanması ilə bağlı sərəncam imzalanmışdır və 2012-ci ilin axırına qədər bu Konsepsiyanın hazırlanması nəzərdə tutulur. Konsepsiyada ilk növbədə, ümumi daxili məhsulun artımını qeyri-neft-qaz sektorunun inkişafı hesabına təmin etmək, iqtisadiyyatın diversifikasiya prosesini sürətləndirmək, ümumi daxili məhsulun tərkibində və dövlət büdcəsinin formalaşmasında təbii ehtiyatlar amilinin azaldılması, qeyri-neft amilinin regionların hesabına üstünlüyünün təmin edilməsi, ixracın təşviq edilməsi və yerli müəssisələrin xarici bazarlara çıxışına nail olmaq əsas məqsədlərdir [2]. Təbii ki, iqtisadiyyatda nəzərdə tutulan bu missiyalar vergi orqanları qarşısında yeni vəzifələr qoyaraq onların yeni formalaşmış biznes mühitinə uyğunlaşmasını tələb edir. Çünki ölkənin sosial-iqtisadi inkişafında səmərəli vergi mühitinin rolu inkar edilməzdir. Eyni zamanda qeyd olunmalıdır ki, iqtisadiyyatın vergi tənzimlənməsinin daim təkmilləşdirilməsi zəruridir [3].

Deməli, Respublikamızın yeni inkişaf mərhələsinə qədəm qoyması eyni zamanda vergi sisteminin də qarşısına yeni tələblər qoymaqla bu məsələnin təkmilləşməsi istiqamətində aparılacaq islahatların istiqamətlərinin elmi cəhətdən əsaslandırılmasını tələb edir.

## 2. Azərbaycan Respublikasının vergi sisteminin formalaşması və təkmilləşdirilməsi sahəsində aparılan islahatlar

Müstəqil Azərbaycan vergi xidməti bazar münasibətlərinə keçidlə əlaqədar olaraq bu münasibətlərin tənzimlənməsi və dövlət büdcəsinin mədaxil hissəsinin formalaşması aləti kimi 1990-cı ilin iyul ayında Maliyyə Nazirliyinin tərkibində yaradılmışdır. 1991-ci ilin oktyabr ayında isə vergi qanunvericiliyinin və nəzarət sisteminin gücləndirilməsi, sahədə obyektivliyin yaradılması zərurəti əsas götürülərək, xidmət Maliyyə Nazirliyin tərkibindən çıxarılmış, Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyi adı altında müstəqil orqan kimi fəaliyyətə başlamışdır [1].

1993-cü ildə Ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsi ilə ölkədə siyasi sabitlik bərqərar oldu, tezliklə atəşkəs müqaviləsi imzalandı və iqtisadiyyatda baş verən geriləmə prosesi ölkə iqtisadiyyatında canlanma, islahatların aparılması və irimiqyaslı özəlləşdirmə prosesləri ilə əvəz olundu. Bu dövrdə qəbul edilmiş iqtisadi proqramlara əsasən həyata keçirilən islahatlar və özəlləşdirmə prosesi makroiqtisadi sabitliyin və struktur dəyişikliklərin təmin olunmasına yönəldilmişdi. Beynəlxalq maliyyə qurumları ilə birlikdə işlənib hazırlanan və uğurla aparılan islahatlar qarşıya qoyulan məqsədlərin həyata keçirilməsinə, həmçinin iqtisadi artıma və əhalinin maddi rifahının yüksəldilməsinə zəmin yaradırdı. Bu da öz növbəsində iqtisadiyyatın digər sahələrində olduğu kimi, vergi sahəsində də islahatların aparılmasını, bu münasibətlərin inkişafını təmin edə biləcək müasir vergi

siyasətinin həyata keçirilməsini tələb edirdi. Vergi qanunvericiliyində mövcud olan bir sıra boşluqlar istər vergi ödəyicilərində, istərsə də vergi xidməti orqanlarında haqlı narazılıqlar doğururdu. Məhz belə bir şəraitdə ümummilli liderin rəhbərliyi və diqqəti ilə ölkənin vergi sisteminin yenidən təşkil edilməsinə başlanıldı. Vergi münasibətlərinin təkmilləşdirilməsi məqsədilə dövlət başçısının bilavasitə tapşırığı ilə Nazirlər Kabineti bir sıra qərarlar qəbul etdi. Bunlara misal olaraq "Azərbaycan Respublikası ərazisində əhali ilə nağd pul hesablaşmalarının aparılmasında nəzarət-kassa aparatlarının tətbiq olunması haqqında" 18 iyul 1995-ci il, 168 nömrəli "Vergi ödəyicilərinin uçotunun təkmilləşdirilməsi barədə" 19 dekabr 1996-cı il, 182 nömrəli "Mənfəət vergisinin ödənilməsini mərkəzləşdirilmiş qaydada həyata keçirən subyektlər haqqında" 31 mart 1997-ci il, 28 nömrəli "Azərbaycan Respublikası ərazisinə gətirilən minik avtomobillərinin aksiz vergisinə cəlbedilməsi haqqında" 16 aprel 1997-ci il, "Müəssisə və təşkilatların avans vergi məbləğlərinin hesablanması və ödənilməsi haqqında" 1 may 1997-ci il, 71 nömrəli "Məhsulun (*işin, xidmətin*) maya dəyərinə daxil edilən bəzi xərclərin tənzimlənməsi haqqında" 3 iyul 1997-ci il tarixli qərarları göstərmək olar. Onu da qeyd edək ki, hal hazırda qeyd olunan qərarların çoxu vahid qanunvericilik bazalarının (*Vergi Məcəlləsi və Gömrük Məcəlləsi*) hazırlanması ilə əlaqədar olaraq qüvvədən düşmüş, müvafiq məsələlər digər qanunvericilik aktları ilə tənzimlənir.

Vergi sisteminin təkmilləşdirilməsi və bu sahədə aparılan köklü islahatların daha da sürətləndirilməsi məqsədilə Heydər Əliyevin bilavasitə tapşırığı əsasında 1997-ci ildən başlayaraq vergi münasibətlərinin tənzimlənməsi sahəsində vahid və təkmil qanunvericilik bazasının yaradılması üçün Vergi Məcəlləsinin layihəsinin hazırlanmasına başlanıldı. Bu istiqamətdə atılan addımlar ölkədə beynəlxalq normalara uyğun vergi administrasiyasının formalaşdırılmasına, vergi sisteminin mərkəzləşdirilmiş formada idarə edilməsinə, bütün vergi sisteminin vahid qanunvericilik bazası əsasında tənzimlənməsinə imkan verirdi. 2001-ci ilin yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsi müstəqil Azərbaycanın həyatında yeni tarixi bir hadisə olaraq vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış mühüm addımlardan biri kimi çıxış etdi [4].

Ölkə başçısının vergi orqanları qarşısında qoyduğu mühüm vəzifələri əldə rəhbər tutaraq 1999-cu ilin iyun ayından başlayaraq vergi xidmətinin kompleks islahatlarının müfəssəl strateji planı və bu islahatların həyata keçirilməsinin optimal müddətləri işlənib hazırlandı. Bu plan dünya standartlarına cavab verən yeni qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi, vergi administrasiyasının modernləşdirilməsi, vergilərin dövlət büdcəsinə tam və vaxtında səfərbər edilməsinin tədbirlər proqramının həyata keçirilməsini nəzərdə tuturdu. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda vergi sisteminin strukturu və vergi sahəsində milli qanunvericilik bazası formalaşdırılmış, Vergi Məcəlləsi qəbul edilmiş və 2000-ci il 11 fevral tarixli Fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyi ləğv edilmiş,

onun bazasında ölkədə dövlətin vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı - Vergilər Nazirliyi yaradılmışdır. Ulu öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə vergi sistemində islahatlara başlanılmış, vergi siyasətinin əsas istiqamətləri, vergilərin sayı və dərəcələrinin optimal səviyyəsi müəyyənləşdirilmiş, ölkədə vergi yükünün aşağı salınması, vergi menecmentinin müasirləşdirilməsi istiqamətində bir sıra uğurlar əldə olunmuşdur [4].

İlham Əliyev cənablarının siyasi hakimiyyətə gəlməsi ilə ulu öndərin ideyaları, bütün sahələrdə olduğu kimi vergi sahəsində də uğurla davam etdirildi. Ölkəmizdə vergi sferasında aparılan islahatların tərkib hissəsi kimi qabaqcıl dünya təcrübəsinə əsaslanan vergi xidməti quruculuğu davam etmiş, xidmətin müasir Avropa standartlarına uyğunlaşdırılması istiqamətində əməli addımlar atılmışdır. Həyata keçirilən transformasiyanın mühüm tərkib hissələrindən biri "Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi dövlət proqramı"nın reallaşdırılması olmuşdur. Prezidentin 2005-ci il 12 sentyabr tarixli sərəncamı ilə təsdiq olunmuş dövlət proqramının həyata keçirilməsi nəticəsində vergi orqanlarında idarəetmə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, vergilərin könüllü ödənilməsi sisteminin, vergi ödəyicilərinin hüquqlarının qorunması, vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi, vergilərin məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması istiqamətində mühüm işlər görülmüşdür. Vergi orqanlarının ən mühüm strateji məqsədlərini müəyyən edən dövlət proqramının icrası çərçivəsində 5 əsas strateji istiqaməti əhatə edən tədbirlər kompleksi həyata keçirilmişdir. Xüsusi vurğulamaq istərdim ki, ABŞ Xəzinədarlıq Departamentinin, Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının ekspertləri vergi inzibatçılığının təkmilləşdirilməsi üzrə dövlət proqramını inkişaf edən ölkələr və MDB dövlətləri üçün nümunəvi strateji proqram kimi qiymətləndirmişlər [5].

2006-cı ildə vergi menecmentinin elektron qaydada qurulmasına imkan verən Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (*AVİS*) tətbiqinə nail olunmuşdur. AVİS-in texniki imkanları olduqca geniş, vergi ödəyicilərinə elektron xidmətlər sahəsində mövcud olan ən müasir təcrübələri tətbiq edilməklə layihələndirilmişdir. Hazırda ölkəmizdə vergi inzibatçılığının bütün səviyyələrində məlumat mübadiləsi korporativ şəbəkə sistemi üzərindən AVİS vasitəsilə həyata keçirilir. Bu sistem vergi ödəyiciləri ilə bilavasitə işləyən yerli vergi orqanlarının funksional fəaliyyətinin avtomatlaşdırılması, digər dövlət qurumları ilə inteqrasiya, eyni zamanda, müxtəlif iqtisadi təhlillərin və proqnozlaşdırmanın aparılması imkanlarına malikdir [5].

Vergilər Nazirliyi digər dövlət strukturları və qurumlarla elektron məlumat mübadiləsi qurmuşdur. Vergilər Nazirliyi ilə Mərkəzi Bank və banklar arasında elektron sənəd mübadiləsi haqqında kollektiv saziş imzalanmışdır. Bu gün ölkənin 28 bankı Vergilər Nazirliyi ilə elektron sənəd mübadiləsi aparır [5].

2007-ci ildə ölkəmizin ən böyük dövlət portallarından biri olan Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı istifadəyə verildi və bəyannamələrin elektron variantda göndərilməsinə başlandı. Elektron bəyannamə sisteminin tətbiqi ümumilikdə bəyannamələrin tərtib edilməsi və onların vergi orqanına göndərilməsi üçün lazım olan vaxtı əhəmiyyətli şəkildə azaltdı. Hazırda vergi ödəyiciləri tərəfindən Vergilər Nazirliyinə daxil olan bəyannamələrin orta hesabla 90%-i elektron formatda göndərilir. Bu dövr ərzində vergi ödəyicilərinə elektron vergi hesab-fakturalarından istifadə etmək, vətəndaşlarla dövlət qurumu arasında elektron formada məktublaşma imkanı verən "On-line kargüzarlıq" sistemindən faydalanmaq imkanı yaradılmışdır. Hər bir vergi ödəyicisi üçün nazirliyin www.e-taxes.gov.az internet səhifəsində şəxsi elektron qutu yaradılmışdır ki, onun vasitəsilə vergi ödəyiciləri vergi sisteminə aid informasiya xarakterli istənilən sənədi əldə edirlər [6].

2008-ci ildən sahibkarlıq subyektlərinin qeydiyyatının "bir pəncərə" prinsipi tətbiq edilməklə aparılması göstərilən elektron xidmətlərin mühüm tərkib hissəsi olmaqla vergi ödəyiciləri və beynəlxalq təşkilatlar tərəfindən çox müsbət qiymətləndirmişdir. Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatında bu sistemin uğurlu tətbiqi sonradan "bir pəncərə" prinsipinin digər sahələrdə də tətbiqinə təkan vermişdir. 2008-ci ildə Azərbaycanda ilk dəfə ƏDV inzibatçılığı prosesində vergi nəzarətinin tam elektronlaşdırılmasına imkan verən ƏDV depozit hesablarının tətbiqinə başlanmışdır. Vahid ƏDV depozit hesabının tətbiqi ƏDV üzrə vergidən yayınmaların qarşısının alınmasına, eyni zamanda, vergi ödəyicilərinin ƏDV üzrə inzibati yükünün azaldılmasına da şərait yaratmışdır [6].

Qlobal böhran şəraitində belə, Prezident İlham Əliyevin tapşırığı əsasında Azərbaycanda vergi yükünün azaldılması yolu ilə real sektorun təşviqi haqqında qanunverici qərar qəbul edilmiş, 2009-cu ildə vergi qanunvericiliyinə ciddi dəyişikliklər olunmuşdur. Nəticədə 2010-cu ilin yanvarından mənfəət vergisi 22 faizdən 20, fiziki şəxslər üçün gəlir vergisinin maksimal dərəcəsi 35 faizdən 30 faizədək azaldılmış, fərdi sahibkarlar üçün isə bu dərəcə 20 faizədək endirilmişdir. Vergi dərəcələrinin azaldılması real sektorda büdcə gəlirinin bir hissəsinin saxlanılması məqsədilə qəbul edilmişdir. Başqa sözlə, bu tədbirlər iqtisadi fəallığın stimullaşdırılmasına yönəlmiş və onun sayəsində müəssisələrin gəlir və mənfəəti artmış, nəticədə vergitutma bazasının genişlənməsi hesabına dövlət büdcəsinə daxilolmalar artmışdır [7, 8].

Vergilər Nazirliyinin 2010-cu ildə tətbiq etməyə başladığı innovativ texnologiyalardan biri də "onlayn kargüzarlıq" sistemidir. Bu sistem vasitəsilə e-hökumət quruculuğunun əsas tərkib hissələri olan "vətəndaş-dövlət", "biznes-dövlət" və "biznes-biznes" münasibətləri müasir beynəlxalq standartlar səviyyəsində təşkil edilmişdir. 2010-cu ildən etibarən nağd hesablaşmaların aparılması üzərində nəzarət tədbirlərinin gücləndirilməsi məqsədilə vergi ödəyicilərinin nəzarət-kassa aparatlarının yaddaşındakı məlumatların GPRS şəbəkəsi vasitəsilə vergi orqanlarının məlumat bazasına ötürülməsinə başlanılmışdır [9].

2011-ci il yanvar ayının 1-də 2011-2015-ci illəri əhatə edən "Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişafı Konsepsiyası" təsdiq olunmuş, vergilərin könüllü ödənilməsi sisteminin təkmilləşdirilməsi və daha əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə vergi ödəyicilərinə xidmət terminalları yaradılmışdır. Hazırda sayı 27-yə çatan bu terminallar, əsasən, vergi orqanı olmayan şəhər və qəsəbələrdə inşa olunmuş, ən müasir avadanlıqlar, yüksək sürətli internet xətti ilə təchiz edilmişdir [9].

2011-ci il iyulun 1-dən sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin dövlət qeydiyyatı elektron formata keçirilir. İndi fərdi sahibkar olmaq istəyən istənilən şəxs bir neçə dəqiqə ərzində biznesə başlamaq üçün rəsmi qeydiyyat prosesini tamamlaya bilir. Bu il sahibkarlıq subyektləri üçün nəzərdə tutulan ərizələrin böyük hissəsinin elektron qaydada təqdim edilməsi imkanları yaradılmışdır. Azərbaycanda nağd ödəmələr prosesində geniş tətbiq edilən nəzarət-kassa aparatlarının qeydiyyat prosesi də elektronlaşdırılmışdır [9].

Ölkədə aparılan vergi siyasətinin əsas istiqamətlərindən biri də vergilərin iqtisadi fəallığa stimullaşdırıcı təsirini artırmaq, investisiyaları təşviq etməkdir. Bu məqsədlə cədvəl 1-ə nəzər salsaq görərik ki, vergi dərəcələri mərhələlərlə əsaslı şəkildə azaldılmışdır [7]. Bütün bunların nəticəsində Azərbaycan Respublikasında əksər vergilərin dərəcələri digər ölkələrdəki analoji vergi dərəcələrindən xeyli aşağıdır. Əlavə olaraq, fiziki şəxslərin gəlir vergisinin hesablama mexanizmi sadələşdirilmişdir. Ölkədə kiçik və orta sahibkarlığın inkişafını dəstəkləmək, onların vergitutma mexanizmini sadələşdirmək məqsədilə 2001-ci ildən sadələşdirilmiş vergi tətbiq edilir. Azərbaycan Respublikasının vergi siyasətində islahatların mühüm istiqamətlərindən biri dövlətlərarası ikiqat vergiqoymanın aradan qaldırılması haqqında sazişlərin imzalanmasını göstərmək olar. Bu günə qədər 41 ölkə ilə ikiqat vergitutmanın aradan qaldırılması haqqında saziş imzalanmış və daha 17 ölkə ilə danışıqlar aparılır [10].

Respublikamızda həyata keçirilən vergi islahatlarının əsas istiqamətlərindən biri də əlverişli vergi mühitinin yaradılması ilə xarici investorların ölkəyə cəlb edilməsidir. Bu məsələ ilə bağlı Azərbaycan Respublikası tərəfindən bir sıra beynəlxalq müqavilələr bağlanmışdır. Bu müqavilələrə əsasən investisiyaların təşviqi və qorunması, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması, nəqliyyat daşımalarını və kredit sazişlərini əhatə edir. Bundan əlavə, xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırmaq, zəngin neft-qaz yataqlarının mənimsənilməsini sürətləndirmək məqsədilə Azərbaycan Respublikası ərazisində hasilatın pay bölgüsü üzrə sazişlər əsasında karbohidrogen fəaliyyətini həyata keçirən xarici şirkətlər üçün müvafiq protokollarla tənzimlənən, Vergi Məcəlləsindən fərqli üstünlüklərə malik olan xüsusi rejimli vergitutma mexanizmi də nəzərdə tutulmuşdur. Bütün bu görülən tədbirlər son illərdə xarici vergi ödəyicilərinin sayının artmasına, xarici investisiyaların iqtisadiyyata axınının xeyli güclənməsinə səbəb olmuşdur [11].

## 3. Azərbaycan Respublikasında aparılan vergi siyasəti və islahatlarının nəticələri

Əlverişli vergi mühiti bazar iqtisadiyyatının hərəkətverici qüvvəsi olub ölkənin sosial-iqtisadi inkişafında, biznes münasibətlərinin genişlənməsində mühüm rol oynayır.

Dövlət müstəqilliyi əldə etdikdən sonra müstəqil iqtisadi siyasət aparmaq imkanı əldə edən Azərbaycan Respublikası müxtəlif mülkiyyət formalarına və beynəlxalq təsərrüfat sisteminə inteqrasiyaya əsaslanan yeni iqtisadi sistemin - bazar iqtisadiyyatının formalaşdırılması yolunu seçmişdir.

Əvvəldə qeyd etdiyimiz kimi, 1993-cü ildən ümummilli liderimizin siyasi hakimiyyətə gəlməsi ilə vergi xidmətində dərin islahatlar və 2000-ci ildən başlayaraq vergi orqanlarının strukturunun yenidən qurulması ilə Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin bilavasitə qayğısı və diqqəti nəticəsində vergi sisteminin təkmilləşdirilməsinə, onun vahid hüquqi bazasının yaradılması, vergi dərəcələrinin aşağı salınmasına və güzəştlərin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsi, iqtisadiyyatda investisiya qoyuluşunun stimullaşdırılmasına, kiçik və orta sahibkarlıq üçün əlverişli şəraitin yaradılmasına yönəldilən vergi siyasətinin həyata keçirilməsi, habelə vergi xidməti orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində mühüm məqsədyönlü işlər görülmüşdür.

Ümumiyyətlə, yuxarıda danışdığımız vergi islahatlarının nəticələrini aşağıda qısa başlıqlarla nəzərdən keçirək.

### *3.1.Vergi qanunvericilik bazası təkmilləşdirilmişdir*

Azərbaycanda müstəqil vergi xidmətinin nisbətən yaxın keçmişdə - 1991-ci ildə yaradıldığını nəzərə alsaq, o vaxtla vergitutma sahəsində müxtəlif dövrlərdə qəbul edilmiş bir sıra qanunlar və digər normativ-hüquqi aktlar ölkədə yeni iqtisadi sistemin tələblərinə cavab vermirdi və çox vaxt onların gedişinə süni maneçilik törədirdi. Bu səbəbdən də qərara alındı ki, qısa vaxt ərzində Vergi Məcəlləsinin layihəsi hazırlansın.

Bu zaman beynəlxalq maliyyə qurumlarının, yerli və xarici iş adamlarının və mütəxəssislərin fikir və tövsiyələri nəzərə alınmaqla Vergi Məcəlləsi layihəsinin hazırlanması prosesində vergitutmanın sadələşdirilməsi, onun bazasının genişləndirilməsi, vergi yükünün azaldılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi və s. prinsiplər əsas götürüldü. Beləliklə, böyük səylə hazırlanan Vergi Məcəlləsi Milli Məclisdə geniş müzakirə olunaraq 2000-ci il 11 iyul da qəbul edildi və 2001-ci il yanvar ayının 1-dən etibarən qüvvəyə mindi. Həmin tarixdən indiyidək Vergi Məcəlləsində çoxlu sayda əlavə və dəyişikliklər edilərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

### *3.2. İqtisadiyyatı stimullaşdırmaq məqsədilə mövcud reallığa uyğun vergi yükü müəyyən edilmiş və bir çox ölkələrlə ikiqat vergitutma aradan qaldırılmışdır*

Vergi xidməti formalaşandan bu zamana qədər vergi dərəcələri daim aşağı salınmış, bu, həm ümumi vergi daxilolmalarının artmasında, həm də investisiya qoyuluşlarının dinamikasının yüksəldilməsində öz təsirini göstərmişdir. Aşağıdakı cədvəldə büdcə daxilolmalarına görə xüsusi çəkisi ən böyük üç vergi növü nəzərdən keçirilmişdir. Bundan başqa, investisiya axını stimullaşdırmaq məqsədilə dünyanın 41 ölkəsi ilə ikiqat vergitutmanın aradan qaldırılması haqqında saziş imzalanmışdır [7,10].

**Cədvəl 1. Vergi dərəcələrinin dəyişmə dinamikası (*%-lə*)**

| **Hüquqi şəxslərin mənfəət vergisi** | | **Fiziki şəxslərin gəlir vergisi** | | **Əlavə Dəyər Vergisi** | |
|---|---|---|---|---|---|
| ***İllər*** | ***Dərəcə (%)*** | ***İllər*** | ***Dərəcə (%)*** | ***İllər*** | ***Dərəcə (%)*** |
| 1992-1996 | 35 | 1992-1995 | 12-55 | 1992 | 0; 28 |
| 1997-1998 | 32 | 1996-1999 | 12-40 | 1993-2000 | 0; 20 |
| 1999 | 30 | 2000-2003 | 12-35 | 2001-2010 | 0; 18 |
| 2000-2002 | 27 | 2004-2009 | 14-35 | | |
| 2003 | 25 | 2010 | 14-30 | | |
| 2004-2005 | 24 | | | | |
| 2006-2009 | 22 | | | | |
| 2010 | 20 | | | | |

*Mənbə: http://www.taxes.gov.az sayıtının məlumatları əsasında müəllif tərəfindən işlənmişdir.*

### *3.3. Səmərəli vergi siyasəti tezliklə vergi daxilolmalarının artımına zəmin yaratmışdır*

Vergi daxilolmalarının son 6 il (*2005-2011-ci illər*) ərzində artım dinamikası cədvəl 2-də verilmişdir. Cədvələ nəzər salsaq, görərik ki, bu illər ərzində vergi daxilolmaları sıçrayışla artmışdır. 2011- ci ildə daxil olan vergilərin yekun məbləği 2005-ci ilə nisbətən təqribən 5 dəfə artmışdır [8].

### *3.4. Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi tətbiq edilmişdir*

Ölkə Prezidentinin 21 oktyabr 2005-ci il tarixdə təsdiq etdiyi “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı” (Elektron Azərbaycan) qəbul edilməsi vergi orqanlarının da bu prosesdə iştirak etmək zərurəti yaratmışdır. Bu istiqamətdə atılan ən mühüm

**Cədvəl 2. Dövlət büdcəsinə vergi daxilolmaları haqqında məlumat** (*min man*)

| Vergi və digər ödənişlər | Daxilolmalar | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
| ƏDV | 346 057,5 | 400 539,2 | 669 648,9 | 1 169 893,6 | 1 180 280,6 | 1 271 462,7 | 1 387 662,7 |
| Aksizlər | 121 249,6 | 164 047,2 | 330 585,1 | 395 810,5 | 417 368,2 | 452 027,4 | 417 394, 4 |
| Mənfəət vergisi | 356 957,5 | 1 375 561,6 | 2 459 184,6 | 2 863 950,2 | 1 329 192,5 | 1 429 824,9 | 2 133 993,3 |
| Mədən vergisi | 53 540,1 | 100 201,6 | 123 233,1 | 147 749,5 | 121 904,4 | 130 074,4 | 129 770,0 |
| Torpaq vergisi | 15 267,9 | 18 820,5 | 27 288,3 | 30 789,7 | 26 235,6 | 35 311,2 | 35 321,0 |
| Əmlak vergisi | 40 436,3 | 56 253,6 | 72 759,6 | 113 225,5 | 66 168,7 | 101 811,5 | 103 867,1 |
| Fiziki şəxslərin gəlir vergisi | 319 211,9 | 412 250,3 | 596 596,9 | 637 800,2 | 581 873,3 | 590 235,1 | 715 656,2 |
| Dövlət rüsumu | 35 666,5 | 33 500,2 | 50 063,2 | 59 870,7 | 72 874,5 | 89 519,1 | 104 804,8 |
| Yol vergisi | 9 023,4 | 10 338,9 | 17 144,1 | 27 365,6 | 16 462,8 | 15 168,8 | 28 095,4 |
| Sadələşdi-rilmiş vergi | 18 824,8 | 29 694,4 | 48 106,2 | 65 654,5 | 63 573,7 | 65 525,0 | 100 425,7 |
| Digər daxilolmalar | 111 217,4 | 115 413,7 | 154 649,0 | 234 455,8 | 237 465,7 | 111 839,9 | 318 071,4 |
| Cəmi | 1 427 452,9 | 2 706 282,3 | 4 549 259,0 | 5 746 565,8 | 4 113 400,0 | 4 292 800,0 | 5 475 062,0 |

*Mənbə: http://www.taxes.gov.az.*

addımlardan biri AVİS layihəsinin həyata keçirilməsi olmuşdur. AVİS elektron hökumətin qurulması istiqamətində həyata keçirilən əsas layihələrdən biri olmaqla, vergi sistemində çox mühüm texnoloji dəyişikliklərə səbəb olmuş və Azərbaycanın vergi xidmətini təkcə MDB ölkələri arasında deyil, həm də Şərqi Avropada ən modern informasiya texnologiyasına malik bir orqana çevirmişdir. 2006-cı ilin əvvəlindən bu sistemin tətbiqi nəticəsində vergi inzibatçılığının təkmilləşdirilməsinə, vergi sistemində sənəd dövriyyəsinin elektron formata keçirilməsinə, məlumatların işlənməsi sürətinin dəfələrlə artmasına, operativ və çevik vergi nəzarətinin qurulmasına, digər qurumlarla inteqrasiyanın həyata keçirilməsinə nail olunmuşdur.

### *3.5.Sahibkarlıq fəaliyyəti subyektlərinin "bir pəncərə" prinsipi üzrə qeydiyyatının aparılmasına başlanılmışdır*

Bu vəzifə Vergilər Nazirliyinə həvalə edilmişdir. 2008-ci il yanvarın 1-dən etibarən elektron hökumətin daha bir elementi kimi "bir pəncərə" sistemi bütün məlumatların eyni mərkəzdə cəmləşdirilməsini, vergi qeydiyyatı da daxil olmaqla

inzibati qeydiyyatların hamısının sinxronlaşdırılmasını təmin edir. Bu prinsip üzrə qeydiyyatın aparılması sahibkarlıq sektoruna marağı gücləndirmiş və biznesin inkişafına təkan vermişdir [5, 9].

### *3.6. Vergi ödəyiciləri üçün elektron bəyannamə, elektron vergi hesab-fakturalarının göndərilməsi, "onlayn kargüzarlıq" sistemi tətbiq edilmişdir*

Yeni texnologiyalara söykənən elektron kargüzarlıq sisteminin tətbiqi nəticəsində ölkə vətəndaşları bütün müraciətlərini kompyuter və ya mobil telefon vasitəsilə internet üzərindən vergi orqanına göndərə bilirlər. Müraciət edən vətəndaş bu sistem üzərindən vergi orqanına göndərdiyi bütün məktubların vergi orqanı daxilində hərəkətini onlayn rejimdə izləyə və birbaşa icraçı ilə telefon əlaqəsi yarada bilir. "Onlayn kargüzarlıq" sistemi ilk dəfə vətəndaşlara dövlət qurumu ilə elektron formada məktublaşmağa imkan yaratmışdır. Sənəd dövriyyəsi, sənədlərin vahid qeydiyyatı və ödəyicilərin müraciətlərinin operativ emalı prosesi sürətlənmişdir [9, 12].

### *3.7. Beynəlxalq təşkilatların reytinq cədvəllərində respublikamızın mövqeyi yüksəlmişdir*

Dünya Bankının "Doing Business 2012" və PWC şirkətinin "Paying Taxes 2012" hesabatlarına əsasən, vergi qanunvericiliyinin normalarına riayət edilməsinin sadəliyi sub-indikatorları üzrə Azərbaycanın göstəriciləri istər regional, istərsə də orta dünya göstəricilərindən yüksəkdir. Ölkəmiz "Paying Taxes 2012" hesabatında 2011-ci ildə vergi ödəmələrinin sadəliyi reytinqində 26 pillə irəliləmişdir [9, 10].

### *3.8. Vergi nəzarətinin təkmilləşdirilməsi vergidən yayınma hallarını aradan qaldırmışdır*

Azərbaycanın vergi xidmətində son illər aparılan çoxşaxəli islahatların əsas istiqamətlərindən biri də vergi nəzarətinin təkmilləşdirilməsidir. Bu baxımdan vergi orqanları nəzarət işlərində əsas diqqəti səyyar vergi yoxlamalarının sayının azaldılması ilə keyfiyyətinin yüksəldilməsinə və ən əsası kameral yoxlamaların səmərəliliyinin artmasına yönəldiblər. Son illərdə vergi yoxlamalarının sayı da nəzərə çarpacaq dərəcədə azalmış, təyin olunan yoxlamaların keyfiyyət göstəriciləri isə xeyli artmışdır.

2010-cu ilin statistikasına nəzər salsaq görərik ki, respublikamızda gəlir və mənfəət vergisi bəyannaməsi təqdim etməli olan vergi ödəyicilərinin 94,1 faizi bəyannaməni vaxtında təqdim etmişdir ki, bu da 2009-cu ilin eyni göstəricisi ilə müqayisədə 2,8 faiz artım deməkdir [9].

## 4. Azərbaycan Respublikasının vergi sisteminin perspektiv inkişaf istiqamətləri

Respublikamızın vergi sisteminin modernləşməsi, vergi xidmətinin təkmilləşdirilməsi və inkişafı sahəsində əldə edilən uğurlar yeni inkişaf strategiyasının müəyyən olunması və həyata keçirilməsi üçün baza rolunu oynayır. Bununla yanaşı, vergi inzibatçılığının keyfiyyətinin kifayət qədər yüksəldilməsinə baxmayaraq, milli və meqo aləmdə iqtisadi şəraitin sürətlə dəyişilməsi, regional və beynəlxalq müstəvidə iqtisadi inteqrasiya və investisiyaların cəlbi üçün əlverişli iqtisadi sistem yaratmaq istiqamətində baş verən proseslər vergi sistemini də daim yeni-yeni islahatlarla mövcud şəraitə uyğunlaşmağa vadar edir.

Son illər vergi sisteminin orta perspektivlər üçün inkişaf istiqamətlərini müəyyən edən iki mühüm sənəd - "Vergi qanunvericiliyinin təkmilləşdirilməsinin strateji istiqamətləri" və "Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə informasiya-kommunikasiya texnologiyalarının istifadə imkanlarının genişləndirilməsi haqqında" konsepsiyalar və 2011-2015-ci illəri əhatə edən "Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişafı Konsepsiyası" qəbul edilmiş və "Vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi üzrə 2009-2012-ci illər üzrə Stateji Plan" təsdiq edilmişdir. Bu baxımdan, qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün nəzərdə tutulmuş tədbirlərə elektron ticarət üzərində vergi nəzarətinin təşkili, həmçinin elektron ticarətə ƏDV-nin tətbiqi, transfert qiymətlərin tənzimlənməsi ilə bağlı qanunvericilik bazası, özəl vergi xidməti haqqında qanun vericilik bazasının formalaşdırılması və s. məsələlər daxildir [6]. Hazırda haqqında danışdığımız məqsədlər çərçivəsində yaxın perspektivdə həyata keçirilməsi gözlənilən bəzi layihələrə nəzər salaq:

### *4.1.Elektron audit*

2011-ci il aprel ayının 14-də Vergilər Nazirliyi Avropa İttifaqının Qonşuluq Siyasəti çərçivəsində bu təşkilatın maliyyə dəstəyi ilə həyata keçirilən "Kompyuter əsaslı audit sistemi sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstəyin göstərilməsi" Tvininq layihəsinin təqdimatı olmuşdur. Respublikamızda e-audit sisteminin tətbiqi vergidən yayınmanın qarşısını almaqla yanaşı, vergi yoxlamalarına sərf olunan vaxt və insan resurslarına qənaətə imkan verəcəkdir. Avropa komissiyası ekspertlərinin rəyinə əsasən, Tvinninq layihəsinin reallaşdırılması nəticəsində Azərbaycan MDB məkanında ən müasir e-audit sisteminə malik olacaq [9].

### *4.2. Əvvəlcədən doldurulmuş bəyannamə sistemi*

Ölkəmizdə tətbiqi nəzərdə tutulan əvvəlcədən doldurulmuş bəyannamə sistemi (*Pre-filled tax return*) vergi ödəyicilərinin inzibatçılıq xərclərinin, bəyannamənin

doldurulmasına sərf oluna vaxtın əhəmiyyətli dərəcədə aşağı düşməsinə imkan verəcəkdir. Bu sistemin mahiyyəti ondan ibarətdir ki, vergi orqanları mövcud məlumatlardan istifadə etməklə bəyannamələri dolduraraq vergi ödəyicisinə e-poçtuna göndərir və vergi ödəyicisi bəyannaməni yoxlayıb, lazım gələrsə müvafiq dəyişikliklər etməklə təsdiqləyir [9].

### *4.3. Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatının elektron aparılması*

Vergilər Nazirliyi biznesə başlamaq prosedurlarının sadələşdirilməsi məqsədilə 2012-ci ildə hüquqi səxslərin elektron qeydiyyat sistemini tətbiq edəcəkdir. 2011-ci ilin sentyabr ayında "Elektron imza və elektron sənəd dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanunun qəbul edilməsi Vergilər Nazirliyinin hüquqi şəxslərin qeydiyyatına elektron formada aparmaq üçün həm texniki, həm də qanunvericilik imkanları yaratmışdır [9].

### *4.4. Vergilərin plastik kartlar vasitəsilə ödənilməsi*

Azərbaycan Respublikasının ödəniş sistemlərinin inkişaf etdirilməsi, vergilər və digər məcburi ödənişlərin də palstik kartlarla ödənilməsinə imkan verəcəkdir. Vergilərin elektron ödəniş sistemi vasitəsilə ödənilməsi dünya təcrübəsinə əsaslanır və milli ödəniş sisteminə böyük töhfə olmaqla, vergi ödəyicilərinin vaxt itkisinin də qarşısını alacaqdır [9].

### *4.5."195" Telefon-məlumat xidmətinin universal telefon-məlumat xidmətinə çevrilməsi*

Vergilər Nazirliyinin "195" Telefon-məlumat xidmətin və ayrı-ayrı orqanların anoloji xidmətlərinin universal telefon-məlumat xidmətinə çevrilməsi nəzərdə tutulmuşdur ki, maraqlı tərəflərin vahid mənbədən vaxt itirmədən biznes, vergi, mühasibat, sığorta, rüsumlar, maliyyə və s. informasiyaları əldə edəcəklər [9].

Əvvəldə qeyd etdiyimiz kimi, respublikamız daha yüksək sosial-iqtisadi inkişaf - innovativ iqtisadiyyatına keçid mərhələsinə qədəm qoymuşdur. Bu strateji məqsədlər və ölkənin maliyyə imkanlarının sürətlə artması vergi qanunvericiliyinin və inzibatçılığının beynəlxalq standartlara uyğunlaşdırılması proseslərinin daha sürətlə aparılmasına tələblər və eyni zamanda imkanlar yaradır [13].

Digər tərəfdən isə, təcrübələr göstərir ki, qanunvericilikdə nəzərdə tutulmuş vergi nəzarətinin bütün üsullarından istifadə etdikdə belə vergi orqanı pul vəsaitlərinin bütün hərəkətini aşkar etmək və bağlanan bütün kommersiya əqdlərinə nəzarət etmək iqtidarında deyildir. Nəticədə müəyyən dövrdən bir vergi islahatları aparılması zərurəti yaranır. İqtisadçılar belə hesab edir ki, hər 5-7 ildən bir əsaslı vergi islahat-

ları, hər 2-3 ildən bir isə qüvvədə olan vergi qanunvericiliyinin səmərəliliyinin dərin təhlili aparılmalıdır. Əgər belə bir təhlil mənfi nəticə çıxarmağa əsas verirsə, onda gecikmədən islahatlar aparmaq lazımdır. Belə bir tendensiya əsasən iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə xasdır [14].

Respublikamızın vergi sistemi qarşısında duran əsas məqsədləri, əsasən, aşağıdakı kimi qruplaşdırmaq olar [14, 15]:

- vergi sistemi maksimal dərəcədə sadələşdirilməsi. Vergi sisteminin mürəkkəbliyi inzibati xərclərin artmasına səbəb olur ki, bu vergi ödəyicilərinin ayrı-ayrı qrupları arasında vergi yükünün qeyri-bərabər bölüşdürüldüyü fikrinə inam yaradır;
- vergi sisteminin stimullaşdırıcı rolunun artırılması. Yaxın illər ərzində büdcə gəlirlərinin artırılması yalnız vergi yükünün deyil, vergi bazasının genişləndirilməsi hesabına artırılması nəzərdə tutulur. Fiziki şəxslərin gəlir və hüquqi şəxslərin mənfəət vergisinin dərəcələrinin aşağı salınması, vergitutma bazasının genişlənməsi artıq ənənəvi hal alıb və bu tendensiyanın gələcəkdə də davam etməsi planlaşdırılır. Bundan başqa, Respublikamızın iqtisadi modeli sosial yönümlü olduğundan kiçik biznesin stimullaşdırılması üçün sadələşdirilmiş verginin tətbiqi davam etdirilməlidir ki, xüsusilə regionlarda kiçik biznes obyektləri rəqabətqabiliyyətli olsunlar və məşğulluq problemi tam həll olunsun;
- vergi sisteminin sabit və proqnozlaşdırılan olması, rəqabətliliyi təmin etməsidir;
- vergi orqanlarının əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması;
- vergi sahəsində Avropa İttifaqına üzv olan ölkələrlə əməkdaşlığın inkişaf etdirilməsi;
- vergi ödəyicilərinin hüquqlarının qorunması məqsədilə apelyasiya sisteminin daha da təkmilləşdirilməsi.

İnkişaf etmiş ölkələrin təcrübələrinə əsas götürərək bu məqsədlərin reallaşdırılması üçün vergi islahatları aşağıdakı prinsiplər əsasında aparılmalıdır [14]:

1. Aşağı dərəcəli vergi sisteminin yaradılması iqtisadi tədqiqatların göstərdiyi kimi, vergi sistemində baş verən bütün əyrintilər məhz vergi dərəcələrinin son həddinin kəmiyyəti ilə bağlıdır.
2. Vergidən yayınmanın müxtəlif sxemləri əsasən vergi şkalasının mütərəqqiliyi və kapitalın müxtəlif dərəcələrlə vergiyə cəlb edilməsi ilə bağlı olur. Gəlirlərin vergiyə cəlb edilməsinin müxtəlif rejimlərinin zəiflədilməsi vergi qanunvericiliyinin kobud surətdə pozulmasının hallarının qarşısını alır və onlarla bağlı cəza tədbirlərinin də sayının xeyli aşağı düşməsinə səbəb olur. Beləliklə, gəlirlərin leqallaşdırılması cəhdləri artır və münbit investisiya mühiti formalaşır.
3. Vergi sisteminin "yaxşı" hesab edilən vergilərdən formalaşdırılması. "Yaxşı" vergi dedikdə son nəticədə bu verginin kimin ödəyəcəyinin əvvəlcədən məlum

olması nəzərdə tutulur. Məsələn, ABŞ-da korporativ gəlir vergisi “pis” vergi kimi təyin olunmuşdur. Çünki bu verginin ağırlığı istehlakçıların və səhmdarların üzərinə düşür, nəticədə kapital yığımı və investisiya fəaliyyətinə maneçilik törədir.

4. Vergi sistemindəki dəyişikliklərin mahiyyəti sıravi vergi ödəyicisi üçün başa düşülən olmalıdır.
5. Vergi islahatları barədə xəbərdarlıq edilməsi. Çünki bəzən sahibkarlar vergi qanunvericiliyinə edilən dəyişikliklər barədə cari maliyyə ili ərzində, investisiyalarını müəyyən sahələrə yerləşdirdikdən, biznes sövdələşmələri bağladıqdan sonra xəbər tuturlar ki, bu da həm biznes, həm də büdcəyə daxilolmalar sahəsində müəyyən itkilərə gətirib çıxarır.
6. Vergi islahatları həyata keçirilərkən qarşıya çoxlu sayda vəzifələr qoyulmamalıdır. Məsələn, vergi sisteminə ağır fiskal tələblər müəyyən etmək və eyni zamanda biznes fəaliyyətinin stimullaşdırılması, gəlirlərin artırılması və s. kimi məqsədlər qoyulması son nəticədə ona gətirib çıxaracaq ki, nəzərdə tutulmuş məqsədlərin heç bir tam olaraq reallaşdırıla bilməyəcəkdir.
7. Növbəti vergi islahatlarına başlayarkən, bu islahatlar nəticəsində hansı nəticələrin əldə ediləcəyini qabaqcadan dəqiq təsəvvür etmək, islahatların qarşısında duran vəzifələrin optimallıq şərtini müəyyən etmək lazımdır.

## 5. Nəticə

Bu elmi məqaləmizdə müstəqillik əldə etdikdən sonra müasir vergi sisteminin qurulması istiqamətində aparılan islahatlardan və onların perspektiv inkişaf istiqamətlərindən bəhs açdıq. Lakin o da qeyd edilməlidir ki, bu islahatlar o qədər geniş mövzudur ki,bunları bir məqaləyə sığışdırmaq mümkünsüzdür və bu baxımdan biz daha önəmli məqamlara toxunmağa  və onları təhlil etməyə çalışdıq. Bu təhlillərimizdən yalnız bir nəticəyə gəlmək olar ki, Ümummilli Liderimizin siyasi hakimiyyətə gəlməsi ilə bütün sahələrdə olduğu kimi, vergi sahəsində də həyata keçirilən kompleks islahatlar vergi sistemindəki yaranmış geriliyin aradan qaldırılmasına imkan vermiş, Azərbaycanda sabit vergi sistemi yaradılmışdır və bunlar nəticə etibarilə strateji planların həyata keçirilməsi üçün əlverişli şərait yaratmışdır.

Dünya Bankı, BVF, ABŞ Xəzinədarlıq Departamentinin, Avropa Komissiyası və PWC şirkəti ekspertlərinin vergi qanunvericiliyinə əməl edilməsinə və elektronlaşma səviyyəsinə görə respublikamızın vergi sisteminə verdikləri qiymətlər və rəylər bunu deməyə əsas verir ki, müstəqillik illərində həyata keçirilən bu islahatlar cəmiyyəti vergilərə dair elementar biliklərinin olmadığı bir mərhələdən vergi quruculuğu tarix baxımdan qısa bir zaman kəsiyində, cəmi 20 il ərzində bir çox ölkələrin bəzən yüz illərlə qət etdikləri bir inkişaf prosesinə keçirmişdir. Bu illər ərzində bütövlükdə liberal və rəqabətqabiliyyətli bir vergi sistemi formalaşdırılmış, Azərbaycanda sər-

mayəçilər üçün cəlbedici, sadə və eyni zamanda, şəffaf və sabit bir vergi sistemi qurulması istiqamətində əhəmiyyətli tədbirlər görülmüşdür ki, bu da vergi xidmətinin texnoloji baxımdan inkişafına, vergi prosedurlarını sadələşdirməklə biznesin inkişafına dəstək vermiş, vergi ödəyicilərinin könüllü əməletmə səviyyəsini yüksəltmişdir.

Bu gün Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 80 faizini təşkil edir. Ölkəmizdə 400 mindən çox vergi ödəyicisi vardır [6]. Ölkədə aparılan islahatlar Azərbaycan İqtisadiyyatını gündən-günə böyüdür və dinamik inkişaf etdirir. Bu da vergi orqanları qarşısında əlavə məsuliyyət qoyaraq vergi xidmətinin daha da təkmilləşdirilməsini, yeni yaranmış biznes mühitinə uyğunlaşmasını tələb edir.

Vergi sisteminin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşma istiqamətlərini müəyyən etmək məqsədilə, dünyada, xüsusən ABŞ-nin, Avropa İttifaqının və digər ölkələrin vergi siyasəti üzrə təcrübəsi dərindən təhlil edilməlidir, bununla yanaşı Respublikamızın xüsusiyyətləri də nəzərə alınmalıdır. Bu zaman, vergi ödəyicilərinin və dövlətin maraqlarının maksimum (mümkün) tarazlığına nail olunması vergi tənzimlənməsinin əsas məqsədini təşkil etməlidir.

Bu məqsədə çatmaq üçün aşağıdakı amilləri təkmilləşdirmək lazımdır.

- vergitutma sisteminin qurulmasının təşkilati-iqtisadi prinsiplərini;
- vergi sisteminin idarəetmə mexanizmini;
- ayrı-ayrılıqda götürülmüş hər bir verginin hesablanması texnikasını.

### Ədəbiyyat siyahısı:


1. Rzayev Z.H., Xəlilov Ş.İ. (*2008*) "İqtisadi tərəqqi və vergi siyasəti". Bakı: Çaşıoğlu;
2. http://www.president.az/articles/3689 (*15.04.2012*)./ "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
3. Rzayev P.Q. (*2012*) İqtisadiyyatın vergi tənzimlənməsi istiqamətində vergitutmanın optimallaşdırılması. "Azərbaycanın vergi xəbərləri". 2(*12*), s. 119-130.
4. "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri". (*2010*) / Respublika elmi-praktik konfransının materialları. Bakı: Şərq-Qərb 2. s. 647-649.
5. http://www.taxes.gov.az/?name=metbuat&bolme=chixish&lang (*01.04.2012*)./ Azərbaycan Respublikasının vergilər naziri F.Ə.Məmmədovun "Azərbaycan" qəzetinə müsahibəsi.
6. http://www.milli.az/news/economy/89595.html. (*01.04.2012*)./ Azərbaycan Respublikası Vergilər Naziri F.Ə. Məmmədovun xarici KİV-nə müsahibəsi.
7. http://www.taxes.gov.az/?lang=&name=statistika&page=25. (*02.04.2012*)./ Vergi dərəcələrinin dinamikası.
8. http://www.taxes.gov.az/?name=statistika (12.04.2012)./Dövlət büdcəsinə vergi və digər ödəmələrin daxil olması haqqında məlumat.
9. "Müstəqil Azərbaycanın vergi sistemi. 20 il (1991-2011)", Vergilər Nazirliyi. (2011).

10. http://pda.trend.az/az/1977005.html Azərbaycan Respublikası Vergilər Naziri F.Ə. Məmmədovun Trend İnformasiya Agentliyinə müsahibəsi.
11. (2012) Azərbaycan respublikasının vergi məcəlləsi, Bakı: Hüquq ədəbiyyatı;
12. http://www.taxes.gov.az/?name=pages&page=53&lang= (12.0.2012)./Elektron xidmətlər.
13. P.Q. Rzayev (2011) Vergi tənzimlənməsi mexanizminin stimullaşdırıcı rolunun artırılması istiqamətləri "Azərbaycanın vergi xəbərləri". 2(11), s 77-88.
14. Məmmədov F.Ə. və başqaları. (2010) Vergilər və vergitutma. Bakı: CBS (Polygraphic Production);
15. http://interfax.az/print/532606/az (13.04.2012). /Azərbaycan Respublikası Vergilər Naziri F.Ə. Məmmədovun "Azərbaycanda vergi sistemi: reallıqlar və perspektivlər" forumunda çıxışı.

**Велизаде Сафтар Вели оглы**
магистрант Азербайджанской Государственной Нефтяной Академии

## Реформы, проведенные в направлении формирования современной налоговой системы независимого Азербайджана, результаты и перспективы развития

### Аннотация

*Цель исследования* - проанализировано динамичное развитие налоговой системы Азербайджанской Республики, определены направления её формирования.

*Методология исследования* - системный подход, сравнительный анализ.

*Результаты исследования* - выдвинуты научно-обоснованные предложения в направлении формирования и развития налоговой системы Азербайджанской Республики.

*Ограничения исследования* - требуется более обширное научное исследование в направлении формирования и развития прогрессивной налоговой системы Азербайджанской Республики.

*Практическая значимость исследования* - возможность использования данного исследования как научного источника во время формирования налоговой системы, проведения налоговых реформ, подготовки мер по повышению эффективности налоговых механизмов.

*Оригинальность и научная новизна исследования* - в статье определены и научно-обоснованы направления формирования и развития прогрессивной налоговой системы.

**Ключевые слова:** *экономика Азербайджана, налоговая система, налоговая политика, налоговые реформы, электронные услуги.*

**Valizadeh Saftar Vali oglu**
master in Azerbaijan State Oil Academy

## The reforms carried out in the direction of the forming of the modern tax system of the independent Azerbaijan, their results and perspective development

## Abstract

*Purpose* – dynamic development of tax system of Azerbaijan Republic is analysed and its directions of forming are defined.

*Design/methodology* – systematic approach, comparative analysis.

*Findings* - Well-founded suggestions in scientific view are given in the direction of the forming and the development of modern tax system of Azerbaijan Republic.

*Research limitations/implications* – the more wide research is required in the direction of the forming and the development of progressive tax system of Azerbaijan Republic scientificly.

*Practical implications* – is its use in the putting into practice of tax reforms, the preparing of measures improve efficiency of tax mechanism, the forming of progressive tax system as scientific source.

*Originality/value* – in the defining, applying and basing of the forming and the development of progressive tax system from scientific point.

**Key words:** *economy of Azerbaijan, tax system, tax policy, tax reforms, electron services.*

Məqalə redaksiyaya daxil olmuşdur: 01.06.2012.
Təkrar işlənməyə göndərilmişdir: 15.06.2012.
Çapa qəbul olunmuşdur: 20.08.2012.